# *Rasim Nəbioğlunun "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" kitabı çap olunub*




Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Aşıqlar Birliyinin üzvü, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Rasim Nəbioğlunun "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" (məqalələr, publisistika, rəylər). II kitab. Bakı, "Xəzər Universitesi" nəşriyyatı, 2021, 358 s) adlı yeni kitabı çap olunub. Kitabın elmi redaktoru və "İstedad və zəhmətin bəhrəsi" adlı ön sözünün müəllifi AMEA Nizami Gəncəvi adına Ədəbiyya İnstitutunda Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Rəhim Əliyev, rəyçilər: AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda Davamlı inkişafın fəlsəfəsi və sosiologiyası şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynov; Azərbaycan Milli Konservatoriyasının professoru, sənətşünaslıq doktoru Abbasqulu Nəcəfzadə; AMEA Memarlıq və İncəsənət İnstitutunda Teatr, kino və televiziya şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov; Atatürk Mərkəzində Beynəlxalq əlaqələr şöbəsinin müdiri, fəlsəfə doktoru Nazir Əhmədlidir.

Kitab Rasim Nəbioğlunun müxtəlif illərdə yazdığı ədəbi-tənqidi, nəzəri-estetik, etik, fəlsəfi, sosioloji, psixoloji-elmi və publisistik məzmunlu yazılarından ibarətdir. Burada müəllifin dünyasını dəyişmiş müəyyən şəxsiyyətlərlə əlaqədar düşüncə və xatirələri də yer almışdır.

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 11 fevral.- S. 24.